# ULU ÖNDƏRİN

## HEYKƏLİNİ YARATMAQ TALE XOŞBƏXTLİYİDİR

*Heykəltəraş Şərif Şərifovun emalatxanası kiçik sərgini xatırladır. Heykəllər, yarımçıq kompozisiyalar sıralanıb. Bir guşə xüsusilə diqqəti cəlb edir.*



Kompozisiyalara diqqətlə baxdığımı görüb, heykəl üzərində işindən danışdı:

- Heydər Əliyevin obrazını yaratmaq mənə tapşırılanda, bir anlıq çaşıb qalsam da, qürurumun həddi-hüdudu yox idi. Çoxdankı arzum həyata keçirdi, dahi rəhbərin, xalqımızın böyük oğlunun heykəlini yaratmalı idim. Dahi insanla dəfələrlə görüşmək, söhbət etmək imkanım olmuşdu.

Onunla görüşmək, tövsiyələrini dinləmək hər bir yaradıcı gənc üçün böyük xoşbəxtlik idi. Böyük şəxsiyyət gənclərlə hər söhbətində onlara tövsiyə edərdi ki, kiçik hisslərə qapılmayın, yüksək ideallarla yaşayın, böyük mövzulara girişin, sanballı, millətin tarixinə yazılacaq əsərlər yaradın.

Ulu Öndərin heykəlini yaratmaq əslində sənətkar kimi taleyimə düşən xoşbəxtlik olsa da, həm də çox böyük məsuliyyət idi. Bu tapşırıq bəstəkarların deyimi olmasın, kiçikhəcmli mahnı yox, sanballı, möhtəşəm simfoniya yaratmağa bənzəyirdi. Dahi şəxsiyyətin heykəli üzərində işləmək üçün təkcə sənətkarlıq azdır, həm də gərək ruhən hazır olasan.

Çox qürurverici, sənətkar taleyimə düşən şərəfli bir iş olsa da, yüksək məsuliyyət tələb edirdi. Elə həmin qürur hissi və məsuliyyətlə yaradıcılıq axtarışlarına başladım.

Ümummilli Liderin keşməkeşli, daim mübarizələrlə dolu olan şərəfli həyatı, doğma xalqının azadlığı, müstəqilliyimizin dönməzliyi və əbədiliyi naminə titanik fəaliyyəti, dünya siyasətindəki cahanşümul uğurları nəhəng abidədə öz sənət həllini tapmalı idi. Yeni yaradılan sənət əsəri qədim ənənələrlə müasir memarlığın ən son nailiyyətlərinin sintezinə nail olmağı tələb edirdi. Əsərdə qədimiliklə müasirliyin vəhdəti uğurla həll edilməli idi. Heykəl üzərində işləyərkən hansı həcmdə olması, hava və fəza ilə həmahəngliyi, materialı və rəngi çox mühümdür və işləyərkən diqqətdə saxlanılmalıdır.

Şərif Şərifov sözünə davam edərək deyir ki, heykəl üzərində işləyərkən elə bir təsəvvür yaranır ki, sanki qanadlanırsan, insanı müqəddəsləşdirən həmin məqamda qanadlı bir məxluq kimi göylərə ucalırsan. Sənət də həmin andan başlayır, öz sözünü deyirsən, sevdiyin mövzunu sevdiyin formada və harmoniyada təsvir edirsən.

Elə bu sənət coşqusu və yaradıcılıq ehtirası ilə işə başladım. Heykəlin ilk cizgiləri hazır olur, obraz tədricən "ətə-qana" dolurdu. Yaradıcılıq üslubumu görən sənət dostlarım hərdən məni qınayır, "sən axı klassikadan çıxırsan" deyirdilər. Amma bu iş üslubunu Ulu Öndərin şəxsiyyətinin möhtəşəmliyi və əbədiyaşarlığı tələb edirdi.

Deyir ki, mən sanki Heydər Əliyev şəxsiyyətinin arxasınca gedərək onları plastik nöqteyi-nəzərdən həll etməyə çalışırdım.

Emalatxanasında Ulu Öndərin heykəlinin 5 görünüşdə nümunələri sərgilənib. Deyir ki, son variant bu nümunələr üzərində aparılan gərgin yaradıcılıq axtarışlarının məhsuludur.

Heykəlin uğuru, möhtəşəmliyi və dinamikliyi həm də onun nümayiş etdirildiyi yerdən asılıdır. Ona görə də meydanın sol tərəfini seçdim. Bu yer daha məqsədəuyğun idi. Hər səhər doğan Günəşin ilk şüaları heykəlin üzərinə düşür, sanki Ulu Öndər səhər Günəşini salamlayır. Günorta



Günəş bütün parlaqlığı ilə heykəli nura boyayır. Axşam Günəşi də sanki Ulu Öndərin xeyir-duası ilə qüruba enir.

Gəncəlilər və şəhərimizin qonaqları yəqin xatırlayırlar, Gəncənin Baş meydanında əvvəllər də heykəl vardı. Əzəməti göstərmək məqsədilə üzü Günəşə qoyulmuşdu. Axşam çağı Günəş arxa tərəfdən düşdüyü üçün heykəlin sifəti qapqara kölgəyə bürünürdü. Mən bütün bunları nəzərə alaraq meydanda heykəlin qoyulması üçün yeni, daha münasib yer seçdim. Məqsədim insanla nəfəs-nəfəsə, sanki birbaşa əlaqədə olan abidə yaratmaq idi.

Heykəl üzərində iş prosesindən söhbət açan Şərif Şərifov əsərə necə məsuliyyətlə yanaşdığını xatırlayır. Hər detal üzərində, geyimi, hətta pencəyinin qırışları üzərində necə diqqətlə işlədiyini deyir. Bütün amillər heykəlin plastik həllində önəmli rol oynayır, reallığı artırır.

Abidənin bu özəlliyini görkəmli sənətkar, pianoçu, respublikanın Xalq artisti, Dövlət mükafatı laureatı Fərhad Bədəlbəyli yüksək qiymətləndirib: "Azərbaycanda Heydər Əliyevə ucaldılan abidələrin içərisində öz ifadə gücü ilə seçilən məhz Gəncədəki heykəldir. Mənə Ulu Öndərlə xoş ünsiyyətdə olmaq şərəfi nəsib olub, o cümlədən bir sıra səfərlərdə onu müşayiət edənlərin arasında olmuşam. Gəncədəki abidənin müəllifi ulu öndər Heydər Əliyevin obrazının möhtəşəmliyini və müdrikliyini dəqiqliklə verə bilib. Bu abidə də, həm də güclü bir dinamika var".

Möhtərəm Prezidentimiz İlham Əliyev Gəncəyə hər səfərində Ulu Öndərin şəhərin Baş meydanındakı heykəlini ziyarət edir və önünə tər çiçək dəstələri qoyur.

Heykəltəraş Şərif Şərifov fəxr və qürur hissi ilə deyir ki, bütün qabiliyyətimlə çalışmışam ki, "Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram", - deyən dahi insanın ürəklərdə daim yaşayacaq əziz xatirəsinə gəncəlilərin əziz töhfəsi olsun.

**Vaqif TANRIVERDİYEV,**
**"Respublika".**